Şuşanın küçələrini keçərək, "Qarabağ" hotelinə gəldik. Hotelin yanında böyük bir meydanda Azərbaycan bayrağı dalğalanırdı. Prezidentimiz İlham Əliyevin bu bayrağın qarşısında çıxış edərək, "Şuşa, sən azadsan" sözləri yadıma düşdü.

Hərə bir yeri görmək arzusunda idi. Kəmalə xanımın (İngilis dili və ədəbiyyatı departamentinin müəllimi) nənəsinin evi vaxtilə Cıdır düzünün lap yaxınlığında idi, onu axtarırdı. Xəyalə xanımın (Qəbul və tələbə şöbəsinin assistenti) ömür - gün yoldaşı İlkin Şuşada ata yurdunu görəndə çox kövrəldi. Ev tamamilə dağıdılmış, yararsız vəziyyətə düşmüşdü.

Nəhayət, Cıdır düzü! Bu düzü hər yerdə - şəkillərdə, reklamlarda görmüşdük. Lakin indi uçurumun qarşısında dayanmışıq. İlahi! İgid əsgərlərimiz çiyinlərində avtomat və sursatlarla bu qayalara necə dırmaşıblar, vuruşublar?! Dərin düşüncələr içində "Məzarınız nurla dolsun! Yaşasın Azərbaycan oğulları!"pıçıldadıq.

Mən, Roza xanım, Kəmalə xanım hotelin 8-ci mərtəbəsində yerləşdik. Balkondan necə gözəl bir mənzərə açılırdı! Uzaqda Xankəndini seyr edərək, içimizdən bir arzu keçdi: "O gün olsun, oraya da gedək"... Amin! Gözəl bir axşam! Səma mas - mavi. Ulduzlar çox yaxın. Əlimi uzatdım, dərə bilmədim.

Həqiqətən, unudulmaz bir axşam oldu. Ad günləri, mənim də ad günüm qeyd edildi. Hamlet müəllim və Zərifə xanım mənə təntənəli surətdə milli kəlağayı hədiyyə etdilər.

Bu unudulmaz günlər Xəzərin tarix salnaməsinə yazılacaq. Çoxlarının arzu etdiyi günlər bizə nəsib oldu. Belə ola həmişə!

**Firəngiz Nəsirova,**
*İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi*

# ŞUŞA MƏĞRUR GÖRÜNÜRDÜ...

...Duyğularım ilk öncə çox qarışıq oldu. Uşaqlığımızdan Şuşanın işğal tarixini öyrənərək, içimizdə azca da olsa ümidimiz var idi ki, bir gün Şuşa və işğal olunan torpaqlarımız azad olunacaq. Şuşaya daxil olanda qəlbimə böyük bir kədər qondu. Sanki o çətin günlərdə şəhidlərimizin, qazilərimizin çəkdiyi çətinlikləri hiss etdim. Şuşa sanki bir tərəfdən şəhid qanıyla yuyulduğu üçün kədərini qürurla gizlədir, digər tərəfdən də gözəl gələcək ümidiylə məğrur görünürdü. Müharibənin qızğın vaxtları bizim ailəmizdə də böyük narahatçılıq var idi. Çünki Şuşanın azad olunmasında bütün şəhid qardaşlarımız və qazilərimiz ilə bərabər qəhrəmancasına iştirak etmiş, ağır yaralanmış əmim oğlu Əziz Əzizov də cəbhədə igidlərin sırasında idi.

Allah bu günləri bizə yaşadan şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin, ordumuzu, xalqımızı və dövlətimizi qorusun!

**Aytac Misgərli,**
*Kitabxana və İnformasiya Mərkəzi,*
*direktor müavini*



*Aytac Misgərli*